http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 09 (1606) 14 may 2015 - ci il Qiymətı 40 qəpik



## Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü qeyd edildi 3

## Həkim həmkarımızın maraqlı dilçilik tədqiqatı 4




BU SAYIMIZDA


## BÖYÜK ELMİ ŞURADA



2

## İMTAHANLAR BAŞLADI



5

Veteran əməkdaşlar mükafatlandırıldı 7

QANVERMƏ AKSİYASI

Kürdəmirdə əhali tibbi müayinədən keçirildi

Əməkdaşlarımız Kopenhagendə beynəlxalq konqresdə

ATU-nun prorektoru Avstriyada seminarda iştirak edib 6

Təcrübəli müəllim, xeyirxah insan 7

HƏRBİ TİBB FAKÜLTƏSİ TƏLƏBƏ ELMİ CƏMİYYƏTİNİN İLK KONFRANSINDA 8

BÖYÜK ELMİ ŞURADA

# 2014-2015-ci tədris ili üçün yaz semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti müzakirə olundu

**Aprelin 30-da Böyük Elmi Şuranın növbəti yığıncağı keçirildi. Yığıncağı açan universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov gündəliyə keçməzdən öncə stomatologiya fakültəsinin dekanı, professor Zöhrab Qarayevi 70 illik yubileyi münasibətilə təbrik etdi. Zöhrab müəllimin elmi və pedaqoji fəaliyyətini yüksək qiymətləndirən rektor ona universitet rəhbərliyi, Böyük Elmi Şuranın üzvləri və şəxsən öz adından uzun ömür, möhkəm cansağlığı, gələcək fəaliyyətində müvəffəqiyyətlər arzuladı. Universitetin "Fəxri Fərman"ı yubilyara təqdim olundu.**

Göstərilən diqqət və qayğıya, ünvanına səslənən xoş sözlərə görə dərin ehtiramını və təşəkkürünü bildirən professor Zöhrab Qarayev akademik Əhliman Əmiraslanov başda olmaqla universitet kollektivinə, Böyük Elmi Şuranın üzvlərinə sağlam ömür, firavan həyat və xoşbəxtlik dilədi.



Rektor uzun illərdir ki, universitetin kimya kafedrasına rəhbərlik edən professor Dilqəm Tağıyevi isə AMEA-nın kimya elmləri bölməsinin akademik-katibi vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi və gündəlikdə duran məsələləri diqqətə çatdırdı.

Bundan sonra "Azərbaycan Tibb Universitetində 2014/2015-ci tədris ilində Buraxılış Dövlət Attestasiyasına və yaz semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti, imtahanların mütəşəkkil keçirilməsində kollektivin vəzifələri" barədə universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyevin məruzəsi dinlənildi.

Azərbaycan təhsilinin hərtərəfli inkişafının daim diqqət mərkəzində olmasının əsasını ulu öndər Heydər Əliyevin qoyduğunu, bu siyasətin möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini deyən Sabir Əliyev 2012-ci ilin dekabrında Romada Avropa Oyunları Komitəsinin qəbul etdiyi qərara əsasən Avropanın tarixində birinci dəfə keçiriləcək Avropa oyunlarına Azərbaycanın ev sahibliyi edəcəyini ölkəmizin böyük tarixi uğuru kimi dəyərləndirdi. Bildirdi ki, İlk Avropa Oyunlarının yüksək səviyyədə qonaqpərvərlik, xeyirxahlıq, bayram ab-havası şəraitində keçirilməsi məqsədilə təhsil sferasından 12000 könüllü gənc işə cəlb olunmuşdur ki, onlardan da 1000 nəfərə yaxını Azərbaycan Tibb Universitetinin tələbələridir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamına uyğun olaraq I Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar Bakı şəhərindəki təhsil müəssisələrində tədris prosesi və imtahan sessiyasının cari ilin may ayının 31-nədək başa çatdırılması hamılıqla təmin edilməlidir. Bununla əlaqədar olaraq, bütün təhsil müəssisələri kimi universitetimizdə də 2014/2015-ci tədris ili üçün akademik təqvimi dəyişdirilmiş və yaz semestri 8 mayda, yaz semestrinin imtahan sessiyası isə 29 mayda başa çatdırılacaqdır. Bu ilin Dövlət Attestasiya sınaqlarını da may ayının 25-dək yekunlaşdırmağı planlaşdırırıq.

Bir neçə ildir ki, kredit sistemi ilə təhsil alan tələbələrin imtahanları universitetdə yaradılmış Virtual Test Mərkəzinin köməyi ilə mərkəzləşdirilmiş şəkildə kompyuter vasitəsilə test üsulu ilə aparılır. Cari tədris ilinin yaz semestrinin imtahan sessiyası da kredit sistemi ilə təhsil alan tələbələr üçün həm semestr, həm də dövlət imtahanları (tibbi-profilaktika, tibbi-biologiya və stomatologiya ixtisasları üzrə) kompyüter vasitəsilə test üsulu ilə həyata keçiriləcəkdir. Artıq əczaçılıq fakultəsinin 4-cü kursunda semestr imtahanları başa çatmış, tibbi-profilaktika, tibbi-biologiya və stomatologiya ixtisaslarının V kurslarında imtahanlar davam edir.



Universitetimizdə çalışan professor-müəllim heyəti, tələbələr, magistrlər, rezident və doktorantlar, tədris-köməkçi və texniki işçilərin də ölkənin ictimai-siyasi həyatında baş verən yeni keyfiyyət dəyişikliklərində yaxından iştirak etdiyini söyləyən prorektor həkim-mütəxəssis, həkim, hərbi həkim və feldşer, əczaçı kadrların hazırlanmasına xüsusi diqqət yetirildiyini vurğuladı.

S.Əliyev tibb təhsilinin yaxşılaşdırılması məqsədilə qarşıya qoyulmuş vəzifələri müvəffəqiyyətlə icra etmək üçün universitet rektorluğu, tədris hissəsi, dekanlıqlar və kafedralarımızın əvvəlki illərdə olduğu kimi 2014/2015-ci tədris ilinin yaz semestrində də əllərindən gələni etməyə çalışdıqlarını dedi: "Artıq cari tədris ilindən universitetin klinik kafedralarının tədris bazasının imkanları xeyli yaxşılaşmışdır. Belə ki, universitetin 4 müasir klinikası və əsaslı təmirdən çıxmış və müasir texnologiyalara cavab verən tibbi avadanlıqlarla təmin olunmuş bir sıra şəhər xəstəxanalarında da tədrisin keyfiyyətcə yaxşılaşdırılması üçün müvafiq şərait yaradılmışdır".

O, tələbələrin dərsə davamiyyətini gündəlik diqqətdə saxlamaq məqsədilə tədris binalarında və klinik bazalarında vaxtaşırı aparılan reydlərin nəticələrinə toxunaraq qeyd etdi ki, tələbələrin dərsə davamiyyəti dekanlıqların və rektorluq şurasının bütün iclaslarının müzakirə predmeti olmuş, ayrı-ayrı fakültələrin elmi şuralarında semestr ərzində bir neçə dəfə müzakirəyə çıxarılmış və üzürsüz dərsburaxmanın minimuma endirilməsi üçün əməli tədbirlər həyata keçirilmişdir. Ümumilikdə universitetdə tələbələrin dərsə davamiyyəti qənaətbəxşdir. Birmənalı demək olar ki, kredit sistemi ilə təhsil alan tələbələrin dərsburaxma problemi yox idi. Lakin keçən tədris ilindən bu sistemlə təhsil alan tələbələr Qaydaların imkan verdiyi həddə qədər-fənn üzrə 30%-ə qədər dərs buraxmağa başlamışlar. Keçən tədris ilinin yaz semestrindən Nazirlər Kabineti tərəfindən "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" təsdiq olunmuş və bu Qaydaların 3.2.23-cü bəndinə əsasən "fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizdən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır" və beləliklə 30 faizlik hədd 25 faizə endirilmişdir. Yeni Qaydaların tətbiqi ilə əlaqədar olaraq "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında" Əsasnamənin (Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmri ilə təsdiq edilmiş) 4-cü bəndində rektorun əmri ilə dəyişiklik edilmişdir. Tələbə semestr ərzində fənn üzrə bütün dərslərdə iştirak etdiyi hallarda ona 10, fənn üzrə dərsburaxma 8 %-ə qədər olduqda 9, 8-16-%-ə qədər olduqda 8, 16-25 %-ə qədər olduqda 7 bal verilir. Fənn üzrə ayrılmış auditoriya saatlarının 25 %-dən çoxunda iştirak etmədiyi halda tələbə imtahana buraxılmır.

Xarici vətəndaşlarla tədrisin vəziyyəti və yaz semestrinin imtahan sessiyası üzərində də dayanan prortektor bildirdi ki, ATU-da 16 ölkədən 679 nəfər tələbə, 13 ölkədən 164 dinləyici (bunlardan 19 nəfəri–YÖK), 20 nəfəri ixtisasartıran, cəmi–863 nəfər xarici vətəndaş təhsil alır. Bu tələbələrdən 6 nəfəri (İordaniya) dövlət xətti ilə, 96 nəfəri isə Türkiyə Cumhuriyyəti Seçmə və Yerləşdirmə Mərkəzi (YÖK) yolu ilə təhsilini davam etdirirlər.

Yeni Qaydalara əsasən tələbələrin universitetdən xaric olunmasının nadir hallarda baş verdiyini söyləyən məruzəçi 2 nəfər tələbənin öz xahişi ilə universitetdən xaric edildiyini, 3 nəfərə isə akademik məzuniyyət verildiyini vurğuladı.



Daha sonra 2014/2015-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasını və fakültələr üzrə buraxılış Dövlət Attestasiyasını mütəşəkkil keçirmək məqsədilə universitetdə imzalanan müvafiq əmrləri şərh edən natiq imtahan testlərinin ekspertizası və qəbulunda bəzi dəyişikliklərin aparıldığını, fakültələr və kurslar üzrə universitet rektorunun təsdiqlədiyi imtahan-məqbul şəbəkəsinin də diqqətə çatdırdı.

Çıxışında istehsalat müşavirələrinə də kifayət qədər yer ayıran S.Əliyev həmin iclaslarda kafedralarımızı və tələbələri narahat edən bir sıra məsələlərin müzakirə olunduğunu söylədi və sonda imtahanların mütəşəkkil qaydada keçirilməsi üçün professor-müəllim heyətinin bu məsul və çətin işin öhdəsindən layiqincə gələcəyinə əminliyini bildirdi.

Kafedra müdirləri akademik Dilqəm Tağıyev, professorlar Eldar Qasımov, Mirzə Kazımov, Elxan Kərimov və əczaçılıq fakültəsinin dekanı, professor Tahir Süleymanov çıxışlarında hesabatı qənaətbəxş qiymətləndirərək bu sahədə qazanılan uğurlardan, həmçinin həllini gözləyən problemlərdən söhbət açdılar.

Məruzə və çıxışlarda səslənən fikirlərə yekun vuran Ə.Əmiraslanov müzakirə olunan məsələnin vacibliyini önə çəkərək imtahan sessiyasının daha yüksək səviyyədə keçməsi və tələbələrimizin biliklərinin obyektiv, düzgün qiymətləndirilməsi üçün yeni təkliflər eşitmək istədiklərini vurğuladı: "Şübhəsiz ki, kredit sisteminə keçmək o qədər də asan bir iş deyildi. Mən də çıxış edənlərlə razıyam ki, bu sistemin hansısa həlqəsini hələ yaxşı mənimsəyə bilməmişik, müəyyən boşluqlar var. Deyirlər ki, dünyada ən konservativ insanlar müəllimlərdir. Onlar öyrəndikləri, adət etdikləri bir sistemdən digər sistemə keçməkdə çox çətinliklər çəkirlər. Ancaq buna baxmayaraq bu sistem artıq qəbul olunub, nə sizin, nə bizim, nə də tələbələrin iradəsindən asılı olmayaraq ölkəmiz bu sistema imza atıbdır. Bizə isə çatışmayan cəhətlərini dəqiqləşdirərək bu sistemdən səmərəli istifadə etmək qalır. Kafedralara semestr boyu qiymətləndirmədə tam sərbəstlik vermişik. Amma tələbələrin bilik səviyyəsinin yüksəlməsinə kömək etməyən bir çox amilər hələ də qalıbdır".

Bir qrup xarici tələbənin məqsədyönlü şəkildə incidilmələri barədə müraciət etməsindən təəssüfləndiyini dilə gətirən rektor neqativ hallarla barışmayacaqlarını bir daha vurğuladı.

Qeyd etdi ki, kredit sistemi elə bir sistemdir ki, daim dəyişməli, təkmilləşməlidir. Gələn ildən imtahanların klassik üsulla aparılması ləğv olunur. Yəni praktik vərdişlərin mənimsənilməsinin yoxlanılması çox ciddi bir məsələdir. Dövlət attestasiyasının vaxtı da uzanacaq, əməli vərdişlərin yoxlanılması elə də az vaxt aparmayacaq.

Universitetin maddi-texniki bazasının güclənməsi istiqamətində görülən işlərin davamlı olacağını bildirən Ə.Əmiraslanov müdafiə naziri general-polkovnik Zakir Həsənovun operativ reaksiyası ilə qısa müddət ərzində Hərbi Tibb Fakültəsinin tələbələri üçün müasir, yüksək təchizatlı bir yataqxananın istifadəyə verildiyini də şura üzvlərinin diqqətinə çatdırdı və yaxın gələcəkdə hərbi kafedraların hərbi hospitalın ərazisinə köçürüləcəyinin anonsunu verdi.

Yekun nitqində dərslərlə bağlı mövcud problemlərə də toxunan rektor digər məsələlərin müzakirəsi zamanı ortaya çıxan suallara da aydınlıq gətirdi.

Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

# Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü qeyd edildi

**Azərbaycan Tibb Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar tədbir keçirilib. Toplantıda Tibb Universitetinin kollektivi ilə yanaşı, millət vəkilləri, tanınmış ictimai-siyasi xadimlər, KİV nümayəndələri iştirak ediblər.**



Tədbiri giriş sözü ilə açan ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov ümummilli lider Heydər Əliyevin həyat yoluna nəzər salaraq onun rəhbər dövlət vəzifələrində çalışdığı müddətdə gördüyü işlər və həyata keçirdiyi layihələr haqqında ətraflı məlumat verib. Millət vəkili Ə.Əmiraslanov Heydər Əliyevin çox çətin bir dövrdə Azərbaycan xalqının tələbi ilə Respublikanın siyasi rəhbərliyinə qayıtdığını vurğulayaraq qeyd edib ki, ümummilli liderin rəhbərliyi altında qısa müddət ərzində ölkədə ordu və dövlət quruculuğu, ölkədaxili sabitlik və təhlükəsizlik təmin edilib. Onun rəhbərliyi ilə Azərbaycanın beynəlxalq əlaqələri inkişaf etdirilib, yeni neft-qaz strategiyasının və uzunmüddətli iqtisadi inkişafın əsasının qoyulması kimi iri miqyaslı tədbirlər həyata keçirilib. Qeyd olunub ki, Azərbaycanın müasir inkişafı bu dahi şəxsin adı ilə bağlıdır.

Rektor Ə.Əmiraslanov ümummilli liderin müəyyən etdiyi siyasi xəttin davamı olaraq, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın bu gün siyasi, iqtisadi, sosial, humanitar və sair sahələrdə əldə etdiyi nailiyyətlərin və inkişafın Azərbaycan modeli haqqında tədbir iştirakçılarına məlumat verib.





Daha sonra səhiyyə nazirinin müavini Elsevər Ağayev, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Nəsib Məhəməliyev, YAP-ın Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı və ATU-nun III kurs tələbəsi Şəlalə Osmanova çıxış ediblər. Qeyd olunub ki, Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olan Heydər Əliyev irsi əbədi olaraq Azərbaycan xalqının yaddaşında xoş xatirələrlə qalacaq.

Tədbirdə H.Əliyevin rəhbərliyi dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlərdən söz açılıb, digər dövlət xadimlərinin və siyasətçilərin ümummilli liderlə bağlı fikirləri səsləndirilib.

Tədbirin sonunda ATU-nun bir qrup tələbə - gənclərinə YAP-a üzvülük vəsiqəsi təqdim olunub.

**Günel ASLANOVA**

## Tələbələrimiz «Heydər zirvəsi»ni fəth ediblər

**Azərbaycan Tibb Universiteti (ATU) Tələbə Həmkarlar İttifaqı Komitəsi növbəti uğura imza atıb. Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının (FAİREX) və ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi ilə yaradılan «MEDİCUS» qrupunun üzvləri «Heydər zirvəsi»nə yürüş ediblər.**





ATU-nun Tələbə Həmkarlar İttifaqının sədri Elşad Novruzov bildirib ki, hər il ümummilli lider Heydər Əliyevin ad günü həm də "Heydər zirvəsi"nə kütləvi yürüşlərin təşkili ilə yadda qalır: "Artıq belə kütləvi yürüşlər xoş bir ənənəyə çevrilib və respublikanın müxtəlif bölgələrindən bu aksiyaya qoşulanların sayı ilbəil artmaqda davam edir. Bu il Tibb Universitetinin tələbələri də "Heydər zirvəsi"nə yürüş edərək, universiteti layiqincə təmsil ediblər. Tələbələrimiz 3751 metr yüksəklikdəki zirvəni fəth ediblər".

## Heydər Əliyevin 92-ci ildönümünə həsr olunmuş elmi-praktik konfrans keçirildi

**Azərbaycan Tibb Universitetinin (ATU) ictimai fənnlər kafedrasında "Ulu öndər Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyası milli-mənəvi dəyərlərin qorunub saxlanması və inkişafının təminatçısıdır" mövzusunda elmi-praktik konfrans keçirildi.**





Konfransı ATU-nun ictimai fənnlər kafedrasının müdiri Qoşqar Əliyev açaraq, Ulu Öndərin Azərbaycan təhsilinə və Tibb Universitetinə göstərdiyi qayğısından söz açdı. O qeyd etdi ki, ümumilli lider Heydər Əliyev gənclərin yaxşı təhsil almasına, onların uğurlu karyera, gözəl gələcək qurmalarına çox diqqətlə yanaşıb.

Konfrans ATU tələbələrinin maraqlı və məzmunlu çıxışları ilə davam edib. II Müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi Məhərrəm Alimli "Heydər Əliyevin Azərbaycan dilinə qayğısı", I müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi Nəzrin Əlizdə "Heydər Əliyev və gənclər strategiyası", I müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi Aygül Abdullayeva "Dünya miqyasında siyasətçi Heydər Əliyev", I müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Gülnar Mustafayeva "Milli ləyaqətin formalaşması azərbaycançılıq ideologiyasının mühüm amilidir", pediatriya fakültəsinin V kurs tələbəsi Adilə Əlibalayeva "Heydər Əliyev və azərbaycanlı mentaliteti" mövzularında məruzə ilə çıxış ediblər.

**ATU-nun mətbuat xidməti**

# Həkim həmkarımızın maraqlı dilçilik tədqiqatı

**Azərbaycan bədii və ictimai fikir tarixində ixtisasca həkim olan görkəmli şəxsiyyətlərin adlarına tez-tez rast gəlinir. Bu baxımdan yazıçı N.Nərimanovun, şair A.Səhhətin, yazıçı-publisist T.Ş.Simurqun adlarını xatırlamaq kifayətdir. Bu ənənə çağdaş dövrümüzdə də davam etməkdədir. Məncə, şair, nasir, publisist kimi tanınan görkəmli oftalmoloq, professor Paşa Qəlbinurun yaradıcılığı ilə ötəri tanışlıq dediyimizi təsdiq edə bilər. Bu yazıda haqqında danışacağım araşdırmanın müəllifi isə xatırlatdıqlarımdan fərqli olaraq, əsl dilçi-üslubiyyatçı mövqeyindən yanaşaraq ümummilli liderimiz Heydər Əliyevin zəngin nitqləri üzərində çalışmış, ağır zəhmət və böyük rəhbərə sonsuz sevgi ilə çox maraqlı bir dilçilik əsəri ortaya qoymuşdur.**




Tibb üzrə fəlsəfə doktoru, dosent Nağdəli Tapdıq oğlu Zamanovun "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" adlı ikicildlik monoqrafiyası Ümummilli liderimizin zəngin leksikası, rəngarəng üslubi vasitələri, cəlbedici ekspressivliyi və ən çox da yüksək nitq mədəniyyəti ilə seçilən çıxışları, məruzələri, söhbətləri, müsahibələri haqqında yazılmış ən mükəmməl və hərtərəfli dilçilik tədqiqatıdır. Nağdəli müəllimin əsərinin 1-ci cildi 2013-cü ildə, 2-ci cildi isə 2014-cü ildə çap olunub (N.T.Zamanov. H.Əliyev və Azərbaycan nitq mədəniyyəti. "Elm və təhsil" nəşr; I c., 2013, 480 səh.; II c., 2014, 496 səh.)

Bu monoqrafiyanın 1-ci cildi haqqında kifayət qədər müsbət rəy deyilib, müəllifin zəhmətinə yüksək qiymət verilib. Mən 2-ci cildin bəzi məziyyətləri haqqında bir neçə söz deməyi özümə borc bildim.

Əvvəl dediyim kimi, Nağdəli müəllim ağır, mürəkkəb, həm də günümüz üçün vacib və şərəfli bir işi öhdəsinə götürüb və sözsüz, uğurla da başa çatdırıb. Tədqiqatın 2-ci cildi 11 fəsildən ibarətdir. Kitaba AMEA-nın müxbir üzvü, professor N.Cəfərov ön söz yazıb. Birinci cilddən fərqli olaraq, bu cilddə müəllif tədqiqatını dilimizin leksik vahidlərinin və bəzi sintaktik formalarının dahi rəhbərin nitqindəki üslubi xüsusiyyətlərini üzə çıxarmaq istiqamətində qurur.

Birinci fəsil "H.Əliyev nitqində əsas nitq hissələri" adlanır. Burada müəllif say, əvəzlik, feil və zərflərin üslubi vəzifəsini müəyyənləşdirməyə səy edir və doğrudan da, maraqlı nəticələrə gəlir. Məsələn, "öz" əvəzliyinə aid olan hissədə müəllif yazır: "Öz təyin əvəzliyindən Heydər Əliyev məsələlərə fəlsəfi tərəfdən yanaşdıqda tez-tez istifadə edir" (səh.58). Buna sübut üçün H.Əliyev nitqindən belə bir nümunə verir: "İnsan müstəqildir, insan azaddır. İnsanı heç bir şeyə vadar etmək lazım deyil. Xüsusən, məcbur etmək də lazım deyil. İnsan gərək hər şeyi özü istədiyi kimi etsin, öz istədiyinə görə etsin və özünün mənəviyyatına uyğun etsin. Hərə özü öz tarixini təhlil etməlidir, hərə özü öz işinə qiymət verməlidir" (səh.58). Göründüyü kimi, müəllif öz mülahizəsində nə qədər haqlıdır; müxtəlif hal şəkilçiləri ilə təkrarlanan "öz" əvəzliyi güclü psixoloji – ekspressivlik yaradır, insana məsuliyyət hissi təlqin edir. "H.Əliyev və Azərbaycan nitq mədəniyyəti" monoqrafiyasının ikinci cildinin bütün fəsilləri belə nəzəri mülahizələr və tutarlı nümunələrə söykənən əməli nəticələrlə yadda qalır. (Başqa yazımızda bu fəsildən daha geniş bəhs etmişik).

Kitabın V fəslini müəllif "Heydər Əliyevin nitqində əlavələr" adlandırmışdır. Sintaktik termin kimi "əlavə"nin izahını verən Nağdəli müəllim bu sintaktik vahidin mətnə - cümləyə bir anlaşıqlıq, bir təlqinetmə, nəhayət, güclü ekspressivlik verdiyini önə çəkir, ümummilli liderin nitqlərindəki maraqlı nümunələri şərh edir. VI fəsildə rəhbərin nitqində təkrarlardan istifadənin üslubi özünəməxsusluqlarından danışılır. Təkrarın dildəki ən əlamətdar vəzifəsi deyilən fikrin dəqiqləşdirilməsi, yaddaşlara hopdurulmasıdırsa, onun nitqə pafos, təntənə, intonasiya zənginliyi gətirməsi də nəzərə alınmalıdır. Bu cəhətlərinə görə ulu öndər təkrarlara tez-tez müraciət edir. Nağdəli müəllim bu bölmədə də elə maraqlı, hələ də yaddaşlardan silinməyən nitq parçalarını xatırladır ki, onun müşahidəsinə qibtə etməyə bilmirsən. 1993-cü ildə Ali Sovetin sədri kimi ilk çıxışında "vəd edirəm?", təkrar edirəm ki, mən heç bir vəd vermirəm. Yalnız bir şeyi vəd edə bilərəm" kimi ifadələrin işləndiyi mətninin verilməsi necə də yerinə düşür: "Ali Sovetin sədri seçiləndə də məndən soruşdular ki, nə vəd edirəm? Cavab verdim ki, mən peyğəmbər deyiləm. Azərbaycanın bu vəziyyətdən necə çıxacağını deyə bilmərəm. Ancaq mən bu vəzifəni öz üzərimə götürürəmsə, deməli, Azərbaycanı bu vəziyyətdən çıxarmağın yollarını arayıb-axtarmağı bacaracam. İndi də təkrar edirəm ki, mən heç bir vəd vermirəm. Yalnız bir şeyi vəd edə bilərəm: ...ömrümün bundan sonrakı illərini xalqıma bəxş edirəm" (səh.357). Məncə, bu mətn siyasi-ictimai nitqdə təkrara aid ən maraqlı nümunədir.

Dosent N.T.Zamanov böyük natiqin nitqlərini çox geniş spektrdə araşdırmağı qarşıya məqsəd qoymuşdur. Ona görə də biz bu tədqiqatda dilimizin üslubi imkanları ilə bağlı bütün vasitələrə diqqət yetirməyə çalışdığının şahidi oluruq. Məsələn, funksional üslubiyyatda o qədər də geniş öyrənilməyə lüzum görülməyən ritorik suallar, mürəkkəb cümlələr, neologizmlər, antroponimik sıralanmalar, müqayisələr kimi dil faktları da tədqiqata cəlb olunur.

"H.Əliyevin nitqində antroponimik sıralanmalar" adlanan fəsildə tədqiqatçı böyük natiqin nitqindən elə maraqlı nümunələr gətirir ki, həm ulu öndərin dərin və əhatəli biliyinə, ecazkar yaddaşına bir daha heyran qalırsan, həm də Nağdəli müəllimin bunu alim təxəyyülü ilə duyub araşdırmaya cəlb etməsinə haqq qazandırırsan. Fikrimizin daha da əsaslandırılması üçün həmin fəsildən bir parçanı kiçik ixtisarla nümunə gətirirəm: "H.Əliyevin nitqində antroponimik sıralanmalar dövlətçiliyimiz tarixində görkəmli rolları olan tarixi şəxsiyyətlərin... tanıdılması rolunu oynayır. Azərbaycan xalqının qədim dövlətçilik ənənələrinə malik olması şüurlara çatdırılır: "Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş... ən ümdə məqsədinə çevirmişdir" (səh.439). Ümumiyyətlə, ulu öndərin çıxışları, xalq nümayəndələri ilə söhbətləri zamanı görkəmli dövlət və incəsənət xadimləri, yazıçılar, şairlər xatırlanır, nəticədə bu yolla – şəxsiyyətlərin adlarının sadalanması ilə, o, insanlarda qürur hissi yaratmağa, həmin adların şərəf və ləyaqətindən nümunə götürməyə çağırır. Nağdəli müəllim də bunu yaxşıca dərk etmiş, dahi rəhbərin nitqindən aldığı tutarlı nümunələri izah etməklə maraqlı nəticələrə gəlmişdir.

Kitabın son fəsli "Heydər Əliyev nitqində müqayisələr" adlanır. Müqayisə metodunun nitqə verdiyi məntiqilik, faktın dəqiqləşdirilməsinə şərait yaratdığı haqda danışan müəllif H.Əliyev cənablarının çıxışlarına müraciət edir: "Bu 70 ilin mənfi cəhətləri də var. Amma nailiyyətləri də var (səh.452); "Mənim xatirimdədir, 60-cı illərdə kəndlərə gedirdik, orada palçıqdan tikilmiş evlərə baxanda ... adamın ürəyi ağrıyırdı. Elə Cəlilabad rayonunun özündə... İndi Cəlilabad rayonunda bir kənd tapılmaz ki, orada palçıqdan evlər olsun... (səh.459).

Əlbəttə, 500-ə yaxın səhifəsi olan kitabın bütün məziyyətlərini bir qəzet məqaləsində əhatə etmək mümkün deyil. Ancaq bu ötəri qeydlər də göstərir ki, kitabın müəllifi məsələyə ciddi yanaşmış, müasir dövrdə ona dilimizin dövlət dili səviyyəsində tətbiqinin təkmilləşdirilməsinə olan ehtiyacı hiss etmiş, xalqımızın ümummilli lideri H.Əliyevin nümunəvi nitqinin yüksək mədəni keyfiyyətlərini üzə çıxarmaqla çox möhtəşəm bir iş görmüşdür. Bu tədqiqat Azərbaycan dilinin qorunması və tədqiqinə aid Dövlət Proqramının həyata keçirildiyi və ali məktəblərimizin bütün fakültələrində "Nitq mədəniyyəti" fənninin tədris edilməyə başlandığı bir vaxtda mütəxəssislər, tələbələr və bütövlükdə xalqımız üçün qiymətli nəzəri və əməli mənbədir. Müəllifə bu qiymətli tədqiqatına görə sonsuz minnətdarlıq edir, yeni-yeni yaradıcılıq uğurları diləyirik.

**A.MİRİYEV,**
*ATU-nun Azərbaycan dili kafedrasının müdiri, dosent*

# Azərbaycan-Türkiyə diş həkimləri simpoziumu

**Azərbaycan Tibb Universitetində Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Azərbaycan-Türkiyə diş həkimləri simpoziumu keçirildi. Azərbaycan Tibb Universitetinin dəstəyi ilə baş tutan tədbirdə hər iki ölkənin mütəxəssisləri, gənc həkimlər və rezidentlər iştirak ediblər.**



Simpoziumun açılışında ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov ulu öndər Heydər Əliyevin tibb elminə və təhsilə xüsusi önəm verdiyini qeyd edərək, bu cür beynəlxalq elmi simpoziumların ATU-da keçirilməsini qürur-



verici fakt kimi qiymətləndirdi. Rektor qeyd etdi ki, tədbirdə ağız və üz-çənə cərrahiyyəsi, diş həkimliyinin bütün sahələrinin mütəxəssisləri, Türkiyə və Azərbaycandan dəvət edilmiş professor və ixtisaslaşmış mütəxəssis heyəti iştirak edir. Ə.Əmiraslanov bildirdi ki, simpoziumda səslənəcək məruzələr iştrakçıların gələcək elmi və təcrübi işlərini istiqamətləndirəcək, həmçinin ölkəmizdə diş həkimliyinin inkşafına müsbət təsir göstərəcək. Əhliman Əmiraslanov həmçinin ATU-nun Türkiyənin bir çox univesitetləri ilə sıx əlaqələrinin mövcudluğundan da söz açdı.

Daha sonra isə Türkiyənin İstanbul Kəmər Burqaz Universitetinin professoru Nejat Bora Sayan çıxış edərək Azərbaycanda olduğu üçün özünü çox xoşbəxt hiss etdiyini dedi: "Çünki bizlər qardaş ölkəyik. Bütün seminar iştirakçılarına uğurlar diləyirəm".

Qeyd edək ki, seminarda Türkiyənin İstanbul, Okan, Marmara Universitetlərindən çoxsaylı professorlar iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycanca Vikipediyada «Əhliman Əmiraslanov» adlı məqalə "Yaxşı məqalə" statusu almışdır

**Bu haqda Azərbaycanca Vikipediyanın idarəçilərindən biri olan Araz Yaquboğlu redaksiyamıza məlumat verib. O, 2004-cü ilin yanvar ayından fəaliyyətə başlayan Azərbaycanca Vikipediyada bu günə qədər yaradılan 96 000 məqalədən yalnız 60 məqalənin bu statusu aldığını deyərək bildirib ki,** 18 aprel - 3 may 2015-ci il tarixlərində vikipediya istifadəçiləri arasında keçirilən səsvermədə iştirak edən 9 nəfərin hamısının lehinə səs verdiyi bu məqalə 8 may 2015-ci ildə "Yaxşı məqalə" statusu almış, alman, ingilis, ispan, fransız, rus və türk dillərində də yaradılaraq 7 dili əhatə etmişdir.

Hal-hazırda vikipediya internetdə azad şəkildə yayımlanan, dünyanın 276 dilində könüllü istifadəçilər tərəfindən yaradılan açıq ensiklopediyadır və dünyada 2001-ci ildən fəaliyyətdədir.



*Azərbaycan Tibb Universitetində mayın 11-dən etibarən yaz sessiya imtahanlarına start verilib. Universitetin həyatında bir qələbəlikdir. Tələbələr imtahan vermək üçün toplaşıblar. İstər-istəməz çöhrələrində həyəcan hiss olunur. Axı bu gün onların həyatında biliklərinin təsdiqi, özlərinə inamın hansı səviyyədə olduğunu dəqiqləşdirmək üçün əlamətdar bir gündür. İmtahanın gedişi ilə bağlı "Təbib" qəzetinə reportaj hazırlamaq məqsədilə redaksiyanın reportyor qrupu da buradadır.*



# İMTAHANLAR BAŞLADI

## *İmtahanda 5000-ə yaxın tələbə iştirak edəcək*













Virtual Test Mərkəzinin direktoru, dosent Şahin Bayramovun bildirdiyinə görə, imtahanlar bu ayın 11-dən 29-na qədər davam edəcək. Bu müddət ərzində imtahanlarda 5000-ə yaxın tələbənin iştirak etdəcəyini bildirən Şahin müəllim, təkcə Azərbaycan bölməsi üzrə tələbələrin 4 kursda 160-a yaxın fəndən imtahan verəcəklərini qeyd etdi: "İmtahanların normal şəraitdə keçməsi üçün hər şey qaydasındadır və texniki hazırlıq yüksək səviyyədədir. Generatorumuz da işləyir. Əgər imtahanın gedişi zamanı elektrik enerjisi kəsilərsə, tələbələrimiz heç bir problem olmadan imtahanları verəcəklər".

### "Tələbələrimiz özlərinin elmi potensiallarına güvənirlər..."



**- Bəs tələbələrin imtahanla bağlı hansısa bir şikayəti olurmu?**

- Universitetimizdə tələbələrin şikayətlərinə baxılması üçün apellyasiya komissiyası fəaliyyət göstərir. Komissiyanın sədri tədris işləri üzrə prorektor, professor Sabir Əliyevdir. Tələbələr imtahanla bağlı hansısa şikayətini apellyasiya komissiyasına edə bilər.

Biz tələbənin ona düşən sualın cavabı ilə razılaşmayaraq apellyasiya şikayəti etdiyi halına rast gəlmişik. Bəzən araşdırma zamanı tələbənin haqlı olduğu bəlli olub. Bu zaman onun düzgün hesab etdiyi cavabın balı topladığı balın üzərinə hesablanıb.

Bu gün iki tələbə onlara düşən sualların cavabı ilə bağlı razılaşmayaraq apellyasiya şikayəti verib. Onların haqlı olub-olmadıqlarını komissiya müəyyənləşdirəcək.

Tələbələrin bu istiqamətdə atdığı addımı isə müsbət dəyərləndirir və hesab edirəm ki, onlar öz biliklərinə güvənir, elmi müzakirələr aparmaq üçün özlərinə inanırlar.

### Yaxşı psixoloji mühitin yaranmasının nəticəsi...

**- Əcnəbi tələbələrin bilik səviyyəsi ilə bağlı nə deyərdiniz?**

- Əvvəllər ən çox çətinlik çəkən, kəsiri olanlar əcnəbi tələbələr idi. Onlar əvvəllər hansısa yolla imtahan verəcəklərini və qiymət alacaqlarını fikirləşirdilər. Amma indi yaxşı anlayırlar ki, onların oxumaqdan başqa ayrı çıxış yolları yoxdur. Buna görə imtahanlara hazırlaşaraq gəlir, müvəffəqiyyət də qazanırlar. Əcnəbi tələbələrin uğurları heç də azərbaycanlı tələbələrdən az deyil. Bunu yaxşı psixoloji mühitin yaranması və sistemin düzgün qurulmasının nəticəsi kimi izah etmək olar.

İmtahanın necə təşkil olunması və keçirilməsi ilə bağlı nəzarətçilər və tələbələrlə də görüşdük. Nəzarətçilərdən Tibbi fizika və informatika fakültəsinin əməkdaşı Pəri İsaqovanın bildirdiyinə görə, tələbələrin imtahan zalında yerləşdirilməsi nəzarətçilər tərəfindən aktiv şəkildə həyata keçirilir: "Çalışırıq ki, eyni fəndən imtahan verən tələbələr yanyana düşməsinlər. Onların tələbə biletləri tərəfimizdən yoxlanır və sonra kompyuter arxasında oturmağa icazə verilir. Hazırda şəffaf imtahan gedir. Hələ ki elə bir problemimiz yoxdur."



**İmtahandan çıxan tələbələrlə söhbət edirik. II müalicə işi fakültəsinin tələbəsi Kahay Qasarayeva sevincini bizimlə də bölüşür:**

- İmtahanın nəticəsindən xeyli sevindim. Doğrudur, uğur qazanacağıma ümid edirdim. Tələbənin imtahandan müvəffəqiyyət qazanmasının sevincini daxilən yaşamaq, o hissləri, duyğuları yaxınları ilə bölüşməyin özü bir xoşbəxtlikdir. Bu sevincimi həmişə yaxınlarımla bölüşür, verəcəyim növbəti imtahanlara həvəslə hazırlaşıram. Hazırda özümü xoşbəxt hiss edirəm.

**- Leyla Quluzadə (I müalicə işi, III kurs):**

- Farmakologiya-2-dən imtahan verdim. Çətin imtahan olsa da, bal toplaya bildim. 44 bal topladım. Yaman həyəcanlı idim. İmtahanları verəndən sonra təcrübə keçəcəyəm. Sonra tətil başlayır. Çalışacağam ki, mənalı istirahət edim.

**Vüsal Mustafayev ( II müalicə işi fakültəsinin IV kurs tələbəsi):**

- İmtahanları rahat şəkildə verdim. Heç bir həyacan keçirmədim. Bunun səbəbi 4 il oxuduğum müddətdə yalnız oxumaqla imtahan verməyin mümkünlüyünün şahidi olmağımdır. Bilirəm ki, burada hansısa tapşırıq-filan keçmir. Özümə güvəndiyim üçün həyəcanlanmadım.

**Mətanət Əliyeva (I müalicə işi fakültəsinin V kurs tələbəsi):**

- 49 bal topladım. Düzü 40-dan yuxarı fikirləşmşdim. O biri imtahanlara da hazıram.

**Tələbə Aygül Nabalıyeva da sevinclidir.** Yaxşı hazırlaşdığı üçün ona düşən suallara cavab verməyin çətin olmadığını dilə gətirdi.

İmtahan vermək üçün gözləyən tələbələr bir-birlərini sual-cavab edirdilər. Sanki elmi yarışa girişmişdilər. İmtahan növbələrini gözləyən II müalicə-profilaktika fakültəsinin IV kurs tələbələri Günel Quliyeva və Füzuli Namazov həyəcanlı olduqlarını dilə gətirsələr də bildirdilər ki, imtahanı verə biləcəklərinə ümidlidirlər.

### Əcnəbi tələbələr də imtahanı uğurla verəcəklərinə əmindirlər

Müsahibə zamanı İraq vətəndaşı Sadiq Əlimərdan, Türkiyə vətəndaşı Əli Dindar, İran vətəndaşı Xəlil Rza Xiyabani bildirdilər ki, imtahan verməyə hazırlaşırlar. Hər biri ayrı-ayrılıqda özlərinə güvənir və müvəffəqiyyət qazanacaqlarına əminliklərini bildirdilər.

Uşaq cərrahiyyə kafedrasından nəzarətçi Namiq Xəlilov da imtahanın çox şəffaf keçdiyini və hələlik heç bir neqativ halın qeydə alınmadığını diqqətimizə çatdırdı.

Bir sözlə, kimə yaxınlaşdıq, kimə müraciət etdiksə, imtahanın keçirilməsi ilə bağlı heç bir problemin olmadığını dedilər. İmtahana girən tələbələrə "Həmişə imtahanlardan alnı açıq çıxasınız" diləyi ilə onlardan ayrılırıq.

**Qabil ABDULLAYEV**

**Fotolar Cənnətalı Çingizindir**

# QANVERMƏ AKSİYASI

**Bu il Azərbaycanda Qızıl Aypara Cəmiyyətinin yaranmasının 95-ci ili tamam olur. Bu münasibətlə Qızıl Aypara Cəmiyyəti öz missiyasına uyğun olaraq silsilə humanitar tədbirlər həyata keçirir.**





Qızıl Aypara Cəmiyyəti tərəfindən Azərbaycanda keçirilən tədbirlərdən biri də qanvermə aksiyasıdır. Fəxrlə qeyd etmək istəyirik ki, belə aksiyalardan biri bu günlərdə Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında təşkil edilmişdir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin icraçı katibinin müavini Ceyhun Mirzəyev qeyd edib ki, qanvermə aksiyalarının təşkilində məqsəd ölkəmizdə könüllü qan donorluğu sahəsinin inkişafına yardımçı olmaqdır: "Bu aksiyalar mütəmadi olaraq həm Bakıda, həm də Azərbaycanın bölgələrində təşkil olunur. Tibb Universitetində təşki edilən aksiya bu il ərzində keçirdiyimiz ikinci tədbir idi".

Tədris Cərrahiyyə Klinikasında təşkil edilən aksiyada 70 nəfərə yaxın könüllü iştirak edib, qan veriblər. C.Mirzəyev aksiyanın yüksək səviyyədə təşkilinə görə təmsil etdiyi təşkilatın rəhbərliyi adından Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanova, o cümlədən ATU-nun Tədris Cərrahiyyə Klinikasının kollektivinə təşəkkürünü bildirib.

Qeyd edək ki, bu tədbirin təşkilində qan donorluğunun inkişafına dair işçi qrupun üzvləri də yaxından iştirak ediblər. Sözügedən İşçi Qrup ötən ilin iyununda yaradılıb. Bu qurumun uğurlu və faydalı əməkdaşlığı sayəsində Azərbaycanda Gənc Qan Donorlarının 1 Forumu təşkil olunub.

# Kürdəmirdə əhali tibbi müayinədən keçirildi

**Milli Məclisin üzvü, Azərbaycan Tibb Universitetinin rektoru Əhliman Əmiraslanovun təşəbbüsü ilə Kürdəmirin bir sıra kəndlərində əhalinin tibbi müayinə və müalicə kampaniyası həyata keçirilib.**

1-2 mayda keçirilən aksiyanın əsas məqsədi kəndlərdə yaşayan sakinlərin tibbi müayinəsi və aşkar olunan xəstələrə ixtisaslaşmış tibbi yardım göstərməkdən ibarət olmuşdur.

Aksiya zamanı Kürdəmirin sakinləri ətraflı tibbi müayinədən keçib, əhaliyə konsultativ və müvafiq tibbi-profilaktik yardım təşkil edilib. Ayrı-ayrı şəxslərə yerindəcə tibbi yardım göstərilib. Müayinə nəticəsində bir sıra xəstəlikləri aşkar olunmuş sakinlərin müvafiq müalicə prosedurlarına cəlb olunması qərara alınıb.

Aksiyada Azərbaycan Tibb Universitetinin yüksək ixtisaslı həkim-mütəxəssisləri iştirak ediblər. Kürdəmirə ezam olunan tibbi briqadanın tərkibinə ginekoloq Quliyeva Səkinə, pediatr Cəfərov Asif, oftalmoloq Bayramov Zamin, onkoloq Quliyeva Tamara, cərrah Məmmədov Ruslan, endokrinoloq İsmayılova Könül, terapevt-kardioloq Əfəndiyev İbrahim, USM həkimi Əliyeva Səidə, onkoloq Mehdiyeva Elnarə, dəri-zöhrəvi xəstəlikləri həkimi Ağazadə Maqsud, qulaq-burun-boğaz xəstəlikləri həkimi Qurbanov Ülfət, nevropatoloq Musayeva Aygün daxil olub.





Qeyd edək ki, Azərbaycan Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən deputat seçilib. Millət vəkilinin təşəbbüsü ilə hər il bir neçə dəfə adıçəkilən rayonların əhalisinin tibbi müayinə və müalicəsi təşkil olunur.

# Əməkdaşlarımız Kopenhagendə beynəlxalq konqresdə

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının baş həkimi, dosent Ramin Bayramlı və Mikrobiologiya və İmmunologiya kafedrasının bir sıra digər əməkdaşları bu günlərdə Danimarkanın Kopenhagen şəhərində keçirilən 25-ci "Avropa Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər Konqresi"ndə (ECCMID 2015) iştirak ediblər. Toplantı çərçivəsində müasir elmi məruzələr dinlənilib, bir sıra beynəlxalq elmi cəmiyyətlərlə heyətlərarası görüşlər keçirilib, ikitərəfli elmi əməkdaşlıq üçün razılaşmalar əldə olunub.**




Avropa Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər Cəmiyyətinin Səyahətçi və Miqrant İnfeksiyaları Tədqiqat Qrupunun (ESCMID Study Group for Infections in Travellers and Migrants - ESGITM) üzvü dosent Ramin Bayramlı bu qurumun toplantısında son elmi fəaliyyətlərin təqdimatında iştirak edib. ATU əməkdaşları Ramin Bayramlı və Həyat Əliyeva WAidid TV-yə (World Association for Infectious Diseases and Immunological Disorders) müsahibə verərək bu assosiasiya ilə Azərbaycan Tibbi Mikrobioloq və İmmunoloqlar İctimai Birliyinin əməkdaşlıq perspektivlərindən danışıblar.

ESCMID-in gələcək toplantılarında ATU əməkdaşlarının daha aktiv iştirakı qərarlaşdırılıb.

# Türkiyəli mütəxəssislər rezidentlər üçün seminar keçirdilər

**Türkiyəli mütəxəssislər ATU-da rezidentlər üçün seminar keçirdilər.**



Azərbaycan Tibb Universitetində (ATU) Türkiyəli mütəxəssislərin iştirakı ilə rezidentlər üçün seminarlara start verilib. Tədbirdə Türkiyənin Cümhuriyyət Universitetinin Tibb fakültəsinin əməkdaşları iştirak ediblər.



Mevlana Mübadilə Proqramı çərçivəsində baş tutan seminar zamanı Sivas şəhərində yerləşən Cümhuriyyət Universitetinin Ümumi Cərrahlıq kafedrasının Cərrahi Onkologiya şöbəsinin professoru Kurşat Karadayı "Bədxassəli peritoneal mezoteliomada hipertermik kimya perfuziyası" mövzusunda mühazirə ilə çıxış edib. Döş qəfəsi cərrahlığı kafedrasının dosenti Şülə Karadayı isə "Emfizema zamanı həcm azaldıcı əməliyyatlar" və "Pnevmotoraks" mövzuları ilə bağlı məlumatları açıqlayıb.

Səfər zamanı türkiyəli mütəxəssislər həmçinin ATU-nun Tədris-Cərrahiyyə Klinikasında gənc müəllim və rezidentlərlə görüşüblər, klinikalarda yaradılmış şərait, iş rejimi ilə tanış olublar. Daha sonra türkiyəli qonaqlar ATU-nun Xarici Əlaqələr üzrə prorektoru Rəhimə Qabulova ilə də görüşüblər.

Görüş zamanı ATU-nun rezidentlərinin Sivasdakı Cümhuriyyət Universitetində təcrübə keçməsinin təşkili ilə bağlı məsələ müzakirə olunub. Universitetlər arasında rezident mübadiləsinə dair protokolun hazırlanması və yaxın zamanlarda imzalanmasına dair ilkin razılıq əldə olunub. Görüşdə ATU-nun beynəlxalq əlaqələr şöbəsinin müdiri Nadir Zeynalov, ATU-nun Mevlana Mübadilə Proqramı üzrə koordinatoru İsmayıl Əfəndiyev iştirak ediblər.

Qeyd edək ki, növbəti həftə Cümhuriyyət Universitetinin professorları ATU-nun Onkoloji Klinikasında rezidentlər qarşısında mühazirə ilə çıxış edəcək, həmçinin rezidentlərin ATUREK konfransına da qatılacaqlar.

# ATU-nun prorektoru Avstriyada seminarda iştirak edib

**ATU-nun Xarici Əlaqələr üzrə prorektoru, Terapevtik və Pediatrik propedevtika kafedrasının dosenti Rəhimə Qabulova Avstriyanın Zaltsburq şəhərində Tətbiqi klinik tədqiqat üzrə tibbi seminarda iştirak edib. 19-26 aprel tarixlərində keçirilən seminarda 30 ölkədən tibbin müxtəlif sahələrindən olan 32 mütəxəssis iştirak ediblər.**



Seminarda Filadelfiya Uşaq xəstəxanasının (ABŞ) professoru Dennis Dublin (kurs direktoru), dosent Sintia Mollen, Mark Zonfrillo, dosent Duqlas Vibe mühazirə oxumuşlar. Seminar zamanı Dosent R.Qabulova seminarların təşkilatçısı, Avstriya-Amerika Fondunun direktoru, klinik urologiya üzrə professor Volfqanq Aulitski ilə də görüşüb. Qeyd edək ki, Dr Aulitski ötən tədris ilində ATU-nun qonağı olub, rektor Əhliman Əmiraslanovla görüşüb. Səfər zamanı həmçinin ATU və AAF arasında qarşılıqlı əməkdaşlığa dair müqavilə imzalanmışdı. Müqavilədə Amerika-Avstriya Fondu ilə Azərbaycan Tibb Universitetinin bütün sahələrdə əməkdaşlığı, xüsusilə də gənc həkimlərin, müəllimlərin təkmilləşdirmə kurslarına qatılması, o cümlədən Amerikanın qabaqcıl universitetlərinin müəllimlərinin Azərbaycana dəvəti nəzərdə tutulub.

ATU-nun xarici əlaqələr üzrə prorektoru Rəhimə Qabulovanın sözlərinə görə, Dr. Volfqanq Aulitski ilə görüş zamanı qarşılıqlı əməkdaşlığın gücləndirilməsi haqqında fikir mübadiləsi aparılıb. Bu ilin oktyabr ayında ATU-da kardiologiya üzrə seminarın təşkil olunması, bu tədbirə ABŞ və Avstriyadan mütəxəssislərin dəvət olunması qərara alınıb.

**ATU-nun mətbuat xidməti**

# Veteran əməkdaşlar mükafatlandırıldı

**Azərbaycan Tibb Universitetində (ATU) II Dünya Müharibəsində faşizm üzərində qələbənin 70-ci ildönümü – 9 May qələbə günü münasibətilə tədbir keçirilib. Universitetdə çalışan müharibə veteranları və "1941-1945-ci illərdə vətən müharibəsində fədakar əməyə görə" medalı ilə təltif edilmiş arxa cəbhə veteranları ATU rəhbərliyi tərəfindən hərbi vətənpərvərlik mövzusunun təbliğində xüsusi fəallıqlarına görə pul mükafatı və dəyərli hədiyyələrlə təltif ediliblər.**



Görüşdə ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov müharibə veteranlarını yubiley münasibəti ilə təbrik edərək onlara möhkəm cansağlığı arzulayıb: "Mən həmişə deyirəm ki, müharibə iştirakçıları öz həyatlarını riskə qoyub qəhrəman olan insanlardır. Sizlər Tibb Universitetinin qızıl fondusunuz, bizim üçün həmişə yüksəkdəsiniz. Həmin illərdə göstərdiyiniz fədakarlığı heç vaxt unutmayacağıq".

Tədbirdə iştirak edən müharibə veteranları da rektor Əhliman Əmiraslanova göstərilən diqqət və qayğıya görə təşəkkürlərini bildirdilər, müharibə illəri ilə bağlı xatirələrini danışdılar.

Tədbirin sonunda ATU-nun veteran təmsilçiləri: terapevtik stomatologiya kafedrasının dosenti, müharibə veteranı Mirzəyev Rüstəm Bəhman oğlu, uşaq və yeniyetmələrin gigiyenası kafedrasının dosenti, arxa cəbhə veteranları Orucov Rəhim Alməmməd oğlu, kommunal və qidalanma gigiyenası kafedrasının professoru Qasımov Maqsud Səfər oğluna 500 AZN məbləğində pul mükafatı və hədiyyələr təqdim olundu.

*Arif Kosayev-60*

# Təcrübəli müəllim, xeyirxah insan

**Universitetimizin operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının baş müəllimi Arif Abdulla oğlu Kosayevin 60 yaşı tamam olur.**



A.Kosayev 1955–ci ilin 21 mayında Azərbaycanın dilbər guşələrindən biri–şairlər yurdu Qazax rayonunun Əli Bayramlı (indiki Aslanbəyli) kəndində anadan olub. O, 1972-ci ildə kənd orta məktəbini müvəffəqiyyətlə başa vuraraq keçmiş sovet ordusu sıralarında hərbi xidmət etmişdir.

A.Kosayev 1975-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki ATU) hazırlıq şöbəsinə, 1976-cı ildə isə bu institutun I müalicə-profilaktika fakültəsinə daxil olur. Tələbəlik illəri zamanı TEC-in konfranslarında fəal iştirak edir, yazdığı elmi iş üçün "Ən yaxşı əsərə görə" medalı ilə təltif olunur. 1982-ci ildə təhsilini "Fərqləmə" diplomu ilə bitirən A.Kosayev Respublika Klinik Xəstəxanasında cərrahiyyə ixtisası üzrə internatura keçir. 1983- 1986-cı illərdə 15 saylı Birləşmiş Şəhər Xəstəxanasında həkim-cərrah, 1987-1992-ci illərdə 13 saylı Birləşmiş Şəhər Xəstəxanasında baş həkimin müavini və eyni zamanda Suraxanı rayon səhiyyə şöbəsinin baş eksperti kimi çalışmışdır. 1993-1995-ci illərdə Bakı şəhər 31 saylı poliklinikanın baş həkimi, 1996-1998-ci illərdə isə baş həkimin müavini vəzifələrində çalışmışdır.

1998-ci ildə A.Kosayev müsabiqə yolu ilə ATU-nun operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasına işə qəbul olunur və taleyini Azərbaycan Tibb Universiteti ilə bağlayır. 2002-ci ildən kafedranın tədris hissə müdiri kimi fəaliyyətini davam etdirən Arif müəllim elmi-pedaqoji işlərlə yanaşı, universitetin həyatında baş verən ictimai, siyasi və mədəni–kütləvi tədbirlərdə də fəallıq göstərir. Mənəvi saflığa, dönməz əqidəyə və siyasi biliyə malik olan Arif müəllim 2001-ci ildən YAP-ın fəal üzvüdür.

O, "Bel və peritonarxası sahənin topoqrafiyası və cərrahi əməliyyatları", "Operativ cərrahlıq və topoqrafik anatomiya fənni üzrə tədris proqramı", "Üzün toxuma sahələrində irinli proseslərin cərrahi müalicəsi", "Ətraflarda baş verən irinli iltihabi proseslər zamanı irin toplantılarının yayılmasının topoqrafo-anatomik xüsusiyyətləri" kimi tədris metodik, dərs vəsaitlərinin və bir sıra elmi məqalələrin müəllifidir. Onun bu illər ərzindəki elmi-pedaqoji fəaliyyəti dövlət tərəfindən dəyərləndirilərək "Əməkdə igidliyə görə" medalına və bir sıra fəxri fərmanlara layiq görülmüşdür. "Zərrələrdən zirvəyə" adlı elmi- fəlsəfi, tibbi ensiklopedik topluda Arif Kosayevin həyat və fəaliyyəti geniş işıqlandırılmış, yüksək əxlaqlı ziyalı, təcrübəli müəllim, xeyirxah insan kimi göstərilmişdir.

Arif müəllim həm də qayğıkeş ailə başçısıdır. Onun ömür-gün yoldaşı Rima xanım ixtisasca bioloqdur. 3 övladı atası olan Arif müəllimin yolunu qızları davam etdirir. Ülviyyə oftalmoloq, Günay isə cərrahlıq peşəsinə yiyələnib. Oğlu Rəşad isə bank sistemində çalışır.

Baş müəllim A.Kosayev nizam-intizamı ilə həmişə kafedrada nümunəvi olmuş, tələbə və müəllim kollektivinin daim hörmətini qazanmışdır. Doğma kollektiv Arif müəllimi qarşıdan gələn 60 illik yubileyi münasibətilə təbrik edir və ona həyatda ən vacib nemət olan cansağlığı, işlərində yeni-yeni nailliyyətlər arzulayır.

**L.MƏMMƏDOV,**
*Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının müdiri, professor*

# Mikrobiologiya və İmmunologiya kafedrasının əməkdaşları Kiprdə keçirilən 30-cu ANKEM-də iştirak ediblər

"Azərbaycan Tibb Universitetinin (ATU) Mikrobiologiya və İmmunologiya kafedrasının əməkdaşları 6-11 may 2015-ci ildə Kiprdə keçirilən 30-cu "Antibiotiklər və Kimyəvi reapiya Konqresi"ndə (30-cu ANKEM) iştirak ediblər.

Dosent Ramin Bayramlı və t.ü.f.d., assistent Yavər Hacıyevin qatıldığı toplantı çərçivəsində antibiotiklərin rasional istifadəsinə dair müasir elmi məruzələr dinlənilib, CLSI (Clinical and Laboratory Standards Institute) və EUCAST (European Committee on Antimicrobial Susceptibility Testing) tərəfindən tərtib edilmiş son protokollar müzakirə edilib. Toplantıda yeni antimikrob preparatlar, o cümlədən C Hepatitinin müalicəsində əldə edilən nailiyyətlərdən söhbət açılıb. Konqresə qatılan alimlər 2020-2025-ci illərdə inkişaf etmiş ölkələrdə Hepatit C-nin nadir rast gəlinən xəstəliklərdən olacağını bildiriblər. Çünki artıq yeni preparatlar vasitəsilə bu xəstəliyin tam müalicəsi mümkündür.

30-cu ANKEM konqresinin Elmi Məsləhət Komitəsinin üzvü olan dosent Ramin Bayramlı Türkiyə İnfeksion xəstəliklər və Klinik Mikrobiologiya Uzmanlıq Dərnəyinin sədri (EKMUD) prof.dr. İftihar Köksal ilə birlikdə 30-cu ANKEM konqresinin "Müasir dövrün təhlükəli infeksiyaları" bölməsinə sədrlik edib. Bu toplantıda Ebola, MERS-coV kimi son dövrün təhlükəli infeksiyaları, bölgədə son zamanlar baş verən müharibələr nəticəsində milyonlarla insanın qaçqın vəziyyətinə düşməsi ilə əlaqədar alovlanan infeksiyalar müzakirə edilib.

R.Bayramlı erməni təcavüzü nəticəsində Azərbaycanın 1 milyondan çox qaçqınının olduğunu və Azərbaycan dövlətinin vətəndaşlarını infeksiyalardan qorumaq üçün həyata keçirdiyi tədbirləri, həmçinin Suriyadan köçürülən ermənilərin nəzarətsiz zona olan və narkotiklərin qanunsuz dövriyyəsi geniş yayılan Qarabağa yerləşdirilməsi ilə burada artan infeksiya təhdidini toplantıya qatılanların diqqətinə çatdırıb.

30-cu ANKEM konqresində ATU əməkdaşları elmi işlərinə dair şifahi və poster məruzələri ilə çıxış ediblər.

# Serbiyanın səfiri ATU-nun qonağı oldu

**Serbiya Respublikasının nümayəndə heyəti Azərbaycan Tibb Universitetində (ATU) qonaq olub. Serbiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Neboyşa Rodiç, Belqrad Universitetinin Stomatologiya fakültəsinin dekanı Dr.Miroslov Vukadinoviç ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru dosent Rəhimə Qabulova, beynəlxalq əlaqələr üzrə şöbə müdiri dosent Nadir Zeynalov və stomatologiya fakültəsinin dekanı professor Zöhrab Qarayev ilə görüşüblər.**



Görüş zamanı qonaqlara ATU-nun fəaliyyəti, fakültələri, son illər istifadəyə verilmiş klinikaları haqqında məlumat verilib. Səfir isə öz növbəsində həm Azərbaycanın, həm də yerli Universitetlərin sürətlə inkişafının göz önündə olduğunu deyib. Onun sözlərinə görə, Serbiyada da Azərbaycan Universitetlərinə maraq artmaqdadır.

Görüş zamanı tərəflər ATU ilə Serbiya arasında tələbə mübadiləsinin reallaşdırılmasının vacibliyindən də danışıblar. ATU-nun stomatologiya fakültəsi ilə Belqrad Universitetinin stomatologiya fakültəsi arasında əlaqələrin genişləndirilməsi, iki müəssisə arasında rezident mübadiləsi aparmaq haqqında ilkin razılıq əldə olunub.

Qeyd edək ki, səfər zamanı qonaqlar ATU-nun Stomatoloji Klinikasında da olublar. Onlar müasir avadanlıqlarla təchiz olunmuş klinikada yaradılan şəraiti yüksək qiymətləndiriblər.

# Rektor imtahanların gedişi ilə maraqlanıb

**Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, akademik Əhliman Əmiraslanov sonuncu kurs tələbələrinin Yekun Dövlət Attestasiyası və digər kurslarda isə semestr imtahanları verən tələbələrlə görüşüb, imtahanların gedişi ilə maraqlanıb. İmtahandan uğurla keçən tələbələri təbrik edən rektor onlara gələcək təhsillərində uğurlar diləyib.**



Qeyd edək ki, ATU-da imtahanlara may ayının 11-dən start verilib. Artıq 5000-ə yaxın tələbə imtahandan keçib. İmtahanlar müalicə-profilaktika, stomatologiya, pediatriya, əczaçılıq, tibbi profilaktika və hərbi tibb fakültələrində aparılır.

Artıq üç ildir ki, Tibb Universitetində imtahanlar obyektivliyin tam qorunması məqsədilə test üsulu ilə, kompüterlər vasitəsilə aparılır. İmtahan şərtlərinə görə, tələbələr 1 saat ərzində 50 sualı cavablandırmalıdırlar. İmtahan zamanı yığıla biləcək ən yüksək bal 50-dir. Belə ki, hər sual bir balla qiymətləndirilir.

İmtahanlar zamanı Virtual Test Mərkəzində 220 kompyuter tələbələrin ixtiyarına verilir. Gün ərzində bu mərkəzdə 2500-3000 tələbənin imtahan verməsi mümkündür. Hər tələbə öz məxfi kodu ilə sistemə daxil olaraq sualları cavablandırır və sonda imtahanın nəticəsini görərək zalı tərk edir. İmtahanların gedişinə müşahidə kameraları və imtahanlara nəzarət qrupunun əməkdaşları tərəfindən nəzarət olunur.

**ATU-nun mətbuat xidməti**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

### Kafedraların professorları:

- Ümumi və toksikoloji kimya kafedrası - 1 yer
- Normal fiziologiya kafedrası - 1 yer

### Kafedraların dosentləri (fəlsəfə doktorları):

- Onkologiya kafedrası - 1 yer
- Tibbi fizika və informatika kafedrası - 1 yer
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Pediatriya fakültəsinin daxili xəstəliklər kafedrası - 1 yer
- Neonatologiya kafedrası - 1 yer (0,5 vahid )
- Mikrobiologiya və immunologiya kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer
- Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrası - 1 yer (0,5 vahid)
- Farmakoqnoziya və botanika kafedrası - 1 yer
- Əczaçılıq kimyası kafedrası - 1 yer
- III cərrahi xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Biofiziki və bioüzvi kimya kafedrası - 1 yer
- II daxili xəstəliklər kafedrası - 1 yer
- Dermatovenerologiya kafedrası - 1 yer
- II uşaq xəstəlikləri kafedrası nəzdində immunologiya kursu - 1 yer

### Kafedranın baş müəllimi:

- Azərbaycan dili kafedrası - 1 yer

### Kafedraların müəllimləri:

- Azərbaycan dili kafedrası - 1 yer
- İctimai fənlər kafedrası - 1 yer
- HTF- nin cərrahiyyə kafedrası - 1 yer
- HTF- nin hərbi cərrahiyyə kafedrası - 2 yer
- HTF- nin hərbi səhra terapiyası kafedrası - 1 yer

### Kafedraların assistentləri:

- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Dermatovenerologiya kafedrası - 1 yer (0,5 vahid)
- Nevrologiya və tibbi genetika kafedrası - 1 yer (0,75 vahid)
- Nevrologiya və tibbi genetika kafedrası - 1 yer (0,75 vahid)
- Kliniki farmakologiya kafedrası - 2 yer
- II mamalıq və ginekologiya kafedrası - 1 yer
- II MPF-nin III cərrahi xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Psixiatriya kafedrası - 1 yer
- Ailə təbabəti kafedrası - 1 yer (0,5 vahid)
- II MPF-n uşaq xəstəlikləri kafedrası - 1 yer (0,75 vahid)
- II uşaq xəstəlikləri kafedrası - 1 yer (0,75 vahid)
- Neonatologiya kafedrası - 1 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer
- Travmatologiya və ortopediya kafeldrası - 1 yer (0,5 vahid)
- Travmatologiya və ortopediya kafeldrası - 1 yer (0,5 vahid)
- Tibbi biologiya və genetika kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası kafedrası - 1 yer

### Elmi Tədqiqat Mərkəzi:

**Farmakologiya şöbəsi**

- Baş elmi işçi - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti, 14 may 2015-ci il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**Bakı şəhəri- Az 1022, Bakıxanov küçəsi 23. Telefon: 597-10-08**

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin III kurs, $302^{a}$ qrup tələbəsi Məmmədzadə Fidan Firdovsi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $703^{a}$ qrup tələbəsi Rüstəmli Fərid Soltan oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, $364^{a}$ qrup tələbəsi Nəsirli Ziba Yusif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $37^{a}$ qrup tələbəsi İnam Burakın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $70^{a}$ qrup tələbəsi İsmayılzadə Gülgəz Fərman qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, $875^{a}$ qrup tələbəsi Al Saffar Al-Hüseyin Camal Davudun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $70^{a}$ qrup tələbəsi İsmayılzadə Gülgəz Fərman qızının adına verilmiş qiymət kiabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $272^{a}$ qrup tələbəsi Quluzadə Yaqut Əfqan qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $705^{a}$ qrup tələbəsi Yusifzadə Eyvaz Fərman oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Pediatriya fakültəsinin VI kurs, $420^{b}$ qrup tələbəsi Babazadə Həcər Vüqar qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

# Salihov Yalçın Salih oğlu



**Bu günlərdə Azərbaycan Tibb Universitetinin cərrahi xəstəliklər kafedrasına ağır itki üz vermişdir.**

Kafedranın dosenti, tibb elmləri namizədi Yalçın Salih oğlu Salihov aprelin 16-da qəflətən dünyasını dəyişmişdir.

Yalçın Salihov 1944-cü ildə Bakı şəhərində görkəmli alim və həkim ailəsində dünyaya göz açıb.

O, orta məktəbi bitirdikdən sonra 1961-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki ATU) müalicə-profilaktika fakültəsinə qəbul olmuşdur.

1967-ci ildə institutu bitirib bir il Klinik-Eksperimental Elmi-Tədqiqat İnstitutunda (indiki Cərrahiyyə Mərkəzi) işləmişdir.

1968-1970-ci illərdə Azərbaycan Tibb İnstitutunun cərrahiyyə ixtisası üzrə aspiranturasında təhsil almışdır. 1970-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsini almışdır.

1970-1985-ci illərdə Y.Salihov Azərbaycan Tibb Universitetinin assistent vəzifəsində çalışmış, 1985-ci ildən ATU-nun II cərrahi xəstəliklər kafedrasının dosenti olmuşdur.

Əlcəzair Xalq Demokratik Respublikasında və Səudiyyə Ərəbistanında bacarıqlı bir cərrah kimi fəaliyyət göstərmişdir.

Həmişə özünün elmi və pedaqoji səviyyəsini artıran Yalçın müəllim 50-dən çox elmi əsərin, metodik vəsait və 3 monoqrafiyanın müəllifidir.

Kollektiv və tələbələr arasında böyük nüfuz sahibi idi Yalçın müəllim. Gənc müəllimlərə həmişə kömək edir, pedaqoji səriştələrinin yüksəlməsinə yardımçı olurdu. Səhiyyə mütəxəssislərinin sertifikasiyası üzrə ixtisas komissiyasının üzvü idi, bir sıra tibb müəssisələrinin konsultantı kimi fəaliyyət göstərdi.

Onun həyat və fəaliyyəti hər bir gənc həkim və tələbə üçün mənəviyyat dərsi, kamillik və müdriklik məktəbi olmuşdur.

Yalçın müəllimin zəngin elmi-pedaqoji və praktiki fəaliyyəti Azərbaycan səhiyyəsinin parlaq səhifələrindəndir.

O həm də gözəl ailə başçısı idi, 2 övladı və 3 nəvəsi var.

Gözəl insan, qayğıkeş ziyalı, etibarlı dost və yoldaş Yalçın müəllimin əziz xatirəsini doğma kafedranın və fakültəmizin əməkdaşları, sevimli tələbələri heç zaman unutmayacaqlar.

**Allah rəhmət eləsin, qəbri nurla dolsun! !**

*II cərrahi xəstəliklər kafedrasının əməkdaşları*

# HƏRBİ TİBB FAKÜLTƏSİ TƏLƏBƏ ELMİ CƏMİYYƏTİNİN İLK KONFRANSINDA

**◆ Hərbi Tibb Fakültəsinin I tələbə elmi konfransı keçirilib. Konfransı Hərbi Tibb Fakültəsinin rəisi polkovnik-leytenant Fəxrəddin Ağayev açaraq qeyd edib ki, tələbələrin elmi-tədqiqat işlərində aktiv olmaları onların həm elmi, həm də gələcək həkimlik karyeralarında çox önəmli rol oynayır. O, tədqiqatla məşğul olan və elmi iş hazırlayan aktiv tələbələri beynəlxalq tibbi konfranslara göndərmək üçün əlindən gələni edəcəyini deyib: "Bu, sizlərdən istəyimizdir, fakültənin inkişafının istiqamətlərindən biridir. Yetər ki, siz elmi işlərdə aktivlik göstərin, özünüzü elm cəhətdən inkişaf etdirin."**





Hərbi Tibb Fakültəsinin Tələbə Elmi Cəmiyyətinin rəhbəri, eyni zamanda Hərbi Tibb Fakültəsi rəisinin elmi işlər üzrə müavini, tibb xidməti polkovnik-leytenantı Pərviz Məmmədov da çıxış edərək bildirib ki, fakültəmizdə Tələbə Elmi Cəmiyyəti hələ yeni yaranmışdır. Bu, bizim ilk elmi konfransımızdır. Cəmiyyətin yaranmasında Hərbi Tibb Fakültəsinin tələbəsi Əvəz Zeynallının böyük əməyi olmuşdur.

Fakültənin ilk elmi konfransında 4 məruzəçinin çıxış edəcəyini və yetərincə maraqlı mövzuların dinləniləcəyini söyləyən P.Məmmədov gələcək konfraslarda digər fakültələrin tələbələrinin Hərbi Tibb Fakültəsinə aid olan kafedralardan götürdükləri elmi işlərini dinləmək və onların tədqiqat aparmalarına şərait yaratmaq istəyində olduqlarını deyib. Konfransda çıxış edən tələbələrə uğurlar arzulayaraq yer tuta bilməyən tələbələrimizi həvəsdən düşməməyə və öz üzərlərində daha çox çalışmağa çağırıb.

Sonra V kurs, $1122^{A}$ qrup tələbəsi Fərid Eldarlı "Diffuz toksik urlu xəstələrdə antitiroid preparatlarla müalicənin qiymətləndirilməsi", V kurs $1122^{A}$ qrup tələbəsi Kərim Hüseynov "Baş və boyun dərisinin yerli yayılmış xərçənginin rekonstruktiv plastik əməliyyatdan sonrakı yerli ağırlaşmalarının tədqiqi", II kurs, $1151^{B}$ qrup tələbəsi Hüseynxan Hüseynov "Yaraların sağalması zamanı angiogenez" və I kurs, $1111^{A}$ qrup tələbəsi Ayxan Səfərov "Azərbaycanda qaraciyər transplantasiyası" mövzularında məruzələrlə çıxış ediblər.

Elmi məruzələr dinlənildikdən sonra tələbələr onlara ünvanlanan suallara cavab veriblər. Konfransda iştirak edən zabit və müəllim heyətinin üzvlərindən Hərbi Səhra Cərrahiyyəsi kafedrasının rəisi, tibb xidməti polkovniki Niyazi İsayev və Hərbi Səhra Terapiyası kafedrasının rəisi, tibb xidməti polkovniki Saqil Məmmədov təşkilatçılara təşəkkür edərək tədqiqatçı tələbələrin çıxışlarından razı qaldıqlarını bildiriblər.

Münsiflər heyətinin qərarı ilə birinci yeri Hərbi Tibb Fakültəsi V kurs kursantı Kərim Hüseynov tutub.

Konfrasda çıxış edən 4 tələbədən biri "Ən yaxşı tələbə elmi işi" nominasiyasında qalib seçilib, digər 3 tələbə isə " İlin ən yaxşı tədqiqatçı tələbəsi" adına layiq görülüblər.

Sonda fakültənin rəisi Fəxrəddin Ağayev tədqiqatçı tələbələrə qazandıqları nominasiyaya uyğun diplomlar təqdim edərək çıxışlarından razı qaldığını və növbəti illərdə elmi iş götürən tələbələrin sayının artacağına inandığını bildirib.

**Əvəz ZEYNALLI,**
*Hərbi Tibb Fakültəsi Tələbə Elmi Cəmiyyətinin sədri*

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 100**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 232